

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır


# Şərq qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 174 (20.828)
18 sentyabr 2013-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az
Qiyməti 20 qəpik


## Rəsmi xronika



Sentyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 3 saylı Bakı "ASAN xidmət" mərkəzinin açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərkəzin açılışında iştirak etmişdir.

Prezident İlham Əliyevə "ASAN imza"nın sertifikatı və "ASAN imza"nın daşıyıcısı olan Sim kartın yerləşdiyi mobil telefon təqdim edildi.

Məlumat verildi ki, Bakı şəhər 3 saylı "ASAN xidmət" mərkəzində "Biometrik məlumatların toplanması sistemi" də yaradılmışdır. Sistem biometrik şəkillərin çəkilməsi, barmaq izlərinin götürülməsi, elektron imza və digər xüsusiyyətlərə malikdir. Digərlərində olduğu kimi, bu mərkəzdə də uşaqlar üçün ayrıca oyun guşəsi yaradılmışdır.

"ASAN xidmət" mərkəzində 9 dövlət orqanı – Ədliyyə, Daxili İşlər, Vergilər nazirlikləri, Dövlət Gömrük Komitəsi, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Miqrasiya Xidməti, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Dövlət Sosial Müdafiə Fondu və Milli Arxiv İdarəsi tərəfindən 25 hüquqi xidmət həyata keçirilir.

Dövlətimizin başçısı mərkəzdə yaradılmış şəraitdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.

## "Elektron hökumət" portalında onlayn ödənişlərin tətbiqinə başlanıldı



Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində internet üzərindən elektron ödəniş sisteminin tətbiqinə başlanılması ilə bağlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə nazir Rövşən Məmmədov açaraq bildirib ki, yaşadığımız həyatın artan tələblərini təmin etmək üçün müasir dövrdə vaxt çox məhduddur və buna görə də ondan maksimum qənaətlə istifadə etməyə çalışırıq. Bu amil sürətlə inkişaf edən elektron ödəmə sistemlərinin qurulmasını və ondan istifadəni qaçılmaz edir, eyni zamanda bu sahənin yüksələn xətlə inkişafına imkan yaradır. Elektron pulköçürmə sistemləri onlayn ödəməni günün istənilən vaxtında həyata keçirməyə imkan verir.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 15 iyul 2011-ci il tarixli Fərmanından, 2012-ci il dekabr ayının 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında "Elektron hökumət" layihəsinin həyata keçirilməsi vəziyyəti və qarşıda duran vəzifələr"lə bağlı keçirilən müşavirədən irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublikasının "Elektron hökumət" portalında elektron xidmət vasitəsilə aparılan əməliyyatların və fərdi məlumatların təhlükəsizliyi tam təmin edilərək ödənişlərin real vaxt rejimində elektron formada ödənilməsinin tətbiqinə başlanılıb. Bu, muxtar respublikada informasiya texnologiyalarının inkişafı istiqamətində böyük addımlardan biridir. "Elektron hökumət" portalındakı ilk elektron ödənişlər nazirliyin elektron xidmətlərinə daxil edilən rabitə xidmət haqlarının ödənilməsi və genişzolaqlı internet istifadəçilərinin balanslarının artırılması xidmətləridir. Bu sistem abunəçilərin onlayn rejimdə çevik ödəmə prosesini həyata keçirməyə imkan verir. Bunun üçün abunəçilər ***www.e-hokumet.nmr.az*** saytına daxil olaraq rabitə xidməti haqlarını ödəyə və ADSL istifadəçiləri balanslarını onlayn artıra bilərlər.

Qeyd olunub ki, nazirlik "Golden pay" şirkəti ilə əməkdaşlıq müqaviləsi bağlayıb. Bu müqaviləyə görə, ödənişləri həmin şirkət həyata keçirir.

Tədbirdə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Səbuhi Məmmədovun çıxışı olub. Vurğulanıb ki, bu sistemin tətbiqi böyük əhəmiyyət daşıyır. İstifadəçilərin sistemdən yüksək səviyyədə istifadəsini təmin etmək üçün maarifləndirmə tədbirləri diqqət mərkəzində saxlanmalıdır. Bu, insanların vaxtına qənaət olunması üçün başlıca vasitədir.

Sonra Naxçıvan Muxtar Respublikası İnternet Mərkəzinin şöbə müdiri Şahin İsmayılov elektron ödəniş sistemindən istifadə barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

## 705 saylı hərbi hissənin yaradılmasının növbəti ildönümü qeyd olunub

Naxçıvan şəhərində yerləşən 705 nömrəli orta məktəbin idman şəhərciyində Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən 705 saylı hərbi hissəsinin yaradılmasının növbəti ildönümü münasibətilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə Naxçıvan Qarnizonunun zabiti, polkovnik-leytenant Mirqiyas Rüstəmov açıb. Sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.



Azərbaycanda milli ordu quruculuğuna ilk dəfə Naxçıvandan başlanması haqqında məlumat verən polkovnik-leytenant Mirqiyas Rüstəmov bildirib ki, 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk Milli Ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilib. Naxçıvanda Milli Ordu hissəsinin yaradılması münasibətilə 1992-ci il oktyabrın 9-da ilk hərbi parad keçirilib. Qeyd olunub ki, hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə ordu quruculuğuna başlayan ümummilli lider Heydər Əliyev qüdrətli Azərbaycan Ordusunun yaradıcısı kimi tarixə düşüb. 1993-cü ilin yayında ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra isə ordu quruculuğu istiqamətində mühüm addımlar atılıb. 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan hərbi münaqişəsində atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycanda Milli Ordunun gücləndirilməsi prosesi xeyli sürətləndirilib. Həyata keçirilən tədbirlər nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatı yaxşılaşdırılıb, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılıb. Qeyd edilib ki, ümummilli lider Heydər Əliyevin ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirlər bu gün onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Güclü ordu yaradılması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikasının etibarlı müdafiəsi təmin olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində hərbi hissələr üçün onlarla yeni binalar – əsgəri-məişət yaşayış kompleksləri, müxtəliftəyinatlı obyektlər tikilib istifadəyə verilib. Bu hissələrin texniki təminatı da dəfələrlə yaxşılaşdırılıb. İnkişafının yeni mərhələsinə qədəm qoyan Silahlı Qüvvələrimiz müstəqilliyimizin və dövlətçiliyimizin qarantıdır.

Tədbirdə çıxış edən Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli, 705 nömrəli tam orta məktəbin direktoru Nazim Bayramov, Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, şair Həsənəli Eyvazlı xalq-ordu birliyindən danışıblar, hərbi hissənin yaradılması münasibətilə əsgər və zabitləri təbrik ediblər.

Sonra Naxçıvan Qarnizonunun nümunəvi hərbi orkestrinin çıxışı olub. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının yaradıcı kollektivinin və Naxçıvan Dövlət Filarmoniyasının solistlərinin ifaları alqışlarla qarşılanıb. Yaradıcı kollektivlərin çıxışlarından sonra "N" hərbi hissənin xüsusi hazırlıq bölməsinin nümunəvi çıxışları olub.

## Seminar-müşavirə keçirilib



Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə Babək Rayon İcra Hakimiyyətində "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatının və notariat hərəkətlərinin aparılması zamanı qanunvericiliyin tələbləri" mövzusunda seminar-müşavirə keçirilib.

Rayonun qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndələrin iştirak etdiyi tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyətinin şöbə müdiri Nihal Məmmədov açıb.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik şöbəsinin rəisi, ədliyyə müşaviri Ayaz Məhərrəmov bildirib ki, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sistemi insan hüquqlarının qorunmasında, sosial-müdafiə proqramlarının həyata keçirilməsində, eləcə də ailə sağlamlığının təmin edilməsində, əhalinin mənəvi sağlamlığının müdafiəsində və cəmiyyətdə mövcud olan bir çox digər mühüm hüquqi və sosial proseslərdə vacib rol oynayır.

Nazirliyin Qeydiyyat və notariat şöbəsinin notariat bölməsinin baş məsləhətçisi, kiçik ədliyyə müşaviri Səyyub Kərimov çıxışında bildirib ki, qeydiyyat və notariat sahəsində aparılan əməliyyatlar zamanı qanunvericiliyin tələblərinə əməl olunması, əhaliyə bu sahədə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi, nöqsanlara yol verilməməsi, aparılan əməliyyatlar zamanı kargüzarlıq qaydaları ilə bağlı qanunvericiliyin tələblərinin gözlənilməsinin təmin edilməsi qarşıya qoyulan əsas vəzifələrdəndir. Vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınmasına görə dövlət rüsumu ödənildikdən sonra Qeydiyyat şöbəsinin rəisi və əməliyyatları aparan icra nümayəndəsi müvafiq əməliyyatı rəsmiləşdirməli və bu zaman müvafiq qanunvericiliyin, Ailə Məcəlləsinin, kargüzarlıq qaydalarını müəyyən edən təlimatın tələblərinə riayət etməlidir. Bununla əlaqədar müraciət edənlərin şəxsiyyəti müəyyənləşdirilməli, əməliyyatlar rəsmiləşdirilən zaman vətəndaşların şəxsən iştirakı təmin olunmalıdır.

Sonda iştirakçıları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Yaşayış binaları yeni görkəm alır

*Naxçıvan Muxtar Respublikasında kompleks şəkildə aparılan tikinti-quruculuq işlərinin bir hissəsini də ictimai yaşayış binalarının təmiri və yenidən qurulması təşkil edir. Hazırda Naxçıvan şəhərindəki bir çox yaşayış binalarının fasadı yenilənir, kommunikasiya xətləri dəyişdirilir, sakinlər üçün rahat yaşayış şəraiti yaradılır.*



Əliabad qəsəbəsində yerləşən yaşayış binalarına da bu işlərdən xeyli pay düşüb. Belə ki, təmirinə bu ilin mart ayından başlanılmış Əcəmi küçəsindəki 1-ci və 2-ci binalarda işlər başa çatdırılıb, 3-cü binada isə təmir işləri davam etdirilir. Sonuncu yaşayış binasında dam örtüyü dəyişdirilib, pəncərələr yeniləri ilə əvəz edilib. Binanın fasad hissəsinin üzlənməsi yekunlaşıb, dəhlizlər təmir olunub. Təmirinə ötən ayın əvvəllərindən başlanan adıçəkilən binada, digərlərində olduğu kimi, mərkəzi antenna sistemi quraşdırılıb. Hazırda su təchizatının yenilənməsi işləri görülür. "Cahan İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən aparılan təmir işləri yaxın vaxtlarda başa çatdırılacaqdır.

**Xəbərlər şöbəsi**

18 sentyabr Milli Musiqi Günüdür

# Qəlbləri riqqətə gətirən Azərbaycan musiqisi zəngin tarixə malikdir

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1995-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəyovun anadan olduğu günün, 18 sentyabrın "Milli Musiqi Günü" kimi qeyd olunması haqqında Sərəncam imzalamışdır. Həmin tarixdən etibarən hər il sentyabrın 18-i ölkəmizdə "Milli Musiqi Günü" kimi qeyd olunur.*

"Bəşəriyyət tarixində elə şəxslər var ki, onlar özləri üçün anadan olmayıblar, bəlkə, bütün xalqa və hətta ümuminsaniyyətə xeyir gətirmək və tərəqqisinə səbəb olmaq üçün yaranıblar. Bu cür adamlar nəinki sağlığında, bəlkə, öləndən sonra da camaata mənfəət verirlər", – deyən Üzeyir Hacıbəyov milli musiqimizin və mədəniyyətimizin inkişafında misilsiz xidmətlər göstərmiş, nəinki xalqımızın, ümumiyyətlə, bəşəriyyət tarixinə öz adını dahi sənətkar kimi yazdırmışdır. O, həyatını Azərbaycan mədəniyyətinin, musiqisinin inkişafına, insanların təhsillənməsinə, maariflənməsinə həsr etmişdir. Böyük bəstəkar və ictimai xadim Azərbaycan musiqi sənətinə əvəzsiz töhfələr vermiş, Şərq və Qərb musiqi mədəniyyətləri arasında körpü yaratmış, çoxəsrlik musiqi ənənələrini inkişaf etdirərək yüksək səviyyəyə çatdırmışdır. Onun zəngin musiqişünaslıq əsərləri, dünya musiqisinin inciləri sayılan operettaları, ən həzin duyğuları ifadə edən romansları, xalqın mərdliyindən, mübarizə əzmindən, zəngin mənəvi aləmindən xəbər verən pyesləri və bir çox mahnıları xalqımızın mənəvi xəzinəsini zənginləşdirən ölməz sənət əsərləridir.

Üzeyir Hacıbəyov Azərbaycan bəstəkarlıq məktəbinin əsasını qoymuşdur. Bu məktəbdən bəhrələnənlər peşəkar musiqiçilər kimi yetişərək Azərbaycan klassik musiqisinin inkişafına öz töhfələrini vermişlər. Dahi bəstəkar Üzeyir Hacıbəyovun yaradıcılığı doğma Azərbaycanımızın hüdudlarını aşaraq dünya şöhrəti qazanmışdır. Onun zəngin milli və ümumbəşəri duyğular əks edən əsərləri coğrafi sərhədlər tanımır, dünyanın müxtəlif ölkələrində ifa olunur, dinlənilir və sevilir. Ümummilli liderimiz Heydər Əliyev Üzeyir Hacıbəyovun şəxsiyyətinə və yaradıcılığına yüksək qiymət verərək deyirdi: ***"Üzeyir Hacıbəyovun yazdığı hər bir əsər, hər bir not vərəqi bizim üçün qiymətlidir. Üzeyir Hacıbəyovun ictimai-siyasi fəaliyyəti əvvəldən axıra qədər bizim üçün qiymətlidir. Çünki bunlar hamısı Azərbaycan xalqının dirçəlməsinə, mədəniyyətinin inkişaf etməsinə, xalqımızın özünü tanımasına xidmət edibdir. Bu xidmətlər heç vaxt unudula bilməz. Bu xidmətlər əvəzsizdir. Bütün bunlara görə Üzeyir Hacıbəyovun yaradıcılığı Azərbaycan xalqının milli sərvətidir. Üzeyir Hacıbəyov şəxsiyyəti Azərbaycan xalqının milli iftixarıdır".***

Qədim tarixə malik olan Azərbaycan musiqi sənətinin inkişafı ötən əsrin 70-ci illərində, ümummilli liderimiz Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrlərdə daha dinamik xarakter almışdır. Ulu öndər milli musiqimizin böyük simaları olan Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev, Arif Məlikov kimi dünya səviyyəli bəstəkarlarımızın yaradıcılığını yüksək qiymətləndirmiş, Azərbaycan mədəniyyətinin inkişafına böyük qayğı göstərmişdir. Ulu öndərin Azərbaycana rəhbərliyinin birinci dövründə korifey sənətkarlarımız Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görülmüşlər. Ümummilli liderimiz ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra da Azərbaycan musiqisinin inkişafına böyük qayğı göstərmiş, ixtisaslı musiqiçi kadrların hazırlanmasına xüsusi diqqət yetirmişdir. Tanınmış bəstəkar və musiqiçilər "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif olunmuş, fəxri adlara, Prezident mükafatı və təqaüdlərinə layiq görülmüşlər.

Bu gün ölkəmizdə musiqi sənətinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hər il ölkəmizdə yeni musiqi məktəbləri inşa olunur, konsert salonları təmir edilir və yenidən qurulur, maddi-texniki bazaları gücləndirilir, milli musiqiçi kadrların yetişdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Son illər keçirilən Beynəlxalq Üzeyir Hacıbəyov Musiqi Festivalı, Vokalçıların Bülbül adına V Beynəlxalq Müsabiqəsi, Bakı Beynəlxalq Caz Festivalı, IV Beynəlxalq Rostropoviç Festivalı, I Beynəlxalq Aşıq Festivalı, III Beynəlxalq Muğam Festivalı, Beynəlxalq Muğam Simpoziumu, Qəbələ Beynəlxalq Musiqi festivalları və başqa yüksək səviyyəli tədbirlər ölkəmizdə musiqi mədəniyyəti sahəsində görülmüş işlərin əyani təzahürüdür. ***"Azərbaycanın çox zəngin və böyük musiqi ənənələri vardır. Biz öz musiqimizlə fəxr edə bilərik. Azərbaycanın bir ölkə kimi, müstəqil ölkə kimi yaşaması və inkişafı, dünya miqyasında şöhrəti Azərbaycanın musiqi mədəniyyəti ilə sıx bağlıdır",*** – deyən Prezident İlham Əliyevin diqqət və qayğısı ilə dünyanın müxtəlif ölkələrində Azərbaycan mədəniyyəti ilə bağlı keçirilən tədbirlər milli musiqi sənətimizin tanıdılması və təbliği istiqamətində görülən mühüm işlərdəndir. 2011-ci ildə ölkəmizin "Eurovision" mahnı müsabiqəsində qalib gəlməsi və 2012-ci ilin may ayında Bakı şəhərində 57-ci "Eurovision" mahnı müsabiqəsinin yüksək səviyyədə keçirilməsi isə Azərbaycanın musiqi mədəniyyətini və yüksək təşkilatçılıq imkanlarını bir daha nümayiş etdirmişdir.

Musiqi mədəniyyətinin inkişafı sahəsində həyata keçirilən tədbirlərdə Heydər Əliyev Fondu da yaxından iştirak edir. 2005-ci ilin martında Parisdə "Qarabağ xanəndələri" albomunun təqdimat mərasiminin keçirilməsi, "Üzeyir Hacıbəyov Ensiklopediyası"nın, "Muğam Ensiklopediyası"nın işıq üzü görməsi musiqi mədəniyyətimizin tanıdılması sahəsində həyata keçirilən mühüm tədbirlərdir. 2003-cü ildə Azərbaycan muğamı, 2009-cu ildə isə aşıq sənətinin YUNESKO tərəfindən bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsi Siyahısına daxil edilməsi isə qədim musiqi mədəniyyətimizə beynəlxalq səviyyədə verilən qiymətin ifadəsidir.

Naxçıvan Muxtar Respublikasında da milli musiqimizin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. Bu qayğı son 17 ildə daha dinamik xarakter almış, Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə yeni musiqi məktəbləri tikilib istifadəyə verilmiş, Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Musiqi Kollecinin maddi-texniki bazası gücləndirilmiş, yeni səs avadanlıqları və musiqi alətləri alınmışdır. Naxçıvan Dövlət Filarmoniyasının xarici ölkələrə qastrol səfərləri təşkil edilmiş, musiqi kollektivləri Rusiya Federasiyasında, Türkmənistanda və Türkiyədə uğurla çıxış etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Dövlət Filarmoniyası Estrada Orkestrinin yaradılması haqqında" 2012-ci il 10 yanvar tarixli Sərəncamından sonra filarmoniyada Estrada Orkestri yaradılmış və qısa vaxtda kollektivin fəaliyyəti təmin edilmişdir.

Bu gün Naxçıvan Muxtar Respublikasının Bəstəkarlar Təşkilatı hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşdur. 2012-ci ilin fevralında yenidənqurmadan sonra istifadəyə verilən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında da təşkilat üçün də iş otaqları ayrılmış, yüksək iş şəraiti yaradılmışdır. 2012-ci il iyulun 9-da Bəstəkarlar Təşkilatının hesabat konserti olmuşdur. Hesabat konsertindən sonra bəstəkarlarla görüşən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Naxçıvan Muxtar Respublikasının bəstəkarları milli musiqi xəzinəmizi yeni mahnılarla, dəyərli sənət nümunələri ilə zənginləşdirirlər. Naxçıvanda yaşayıb fəaliyyət göstərən gənc və təcrübəli bəstəkarların yaradıcılığı bu sahədə də varislik ənənələrinin davam etdirildiyini göstərir".***

Musiqimizin inkişafı istiqamətində görülən tədbirlərdən bəhs edərkən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə göstərilən dövlət qayğısını da xüsusilə qeyd etmək lazımdır. Bu gün muxtar respublikada 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi fəaliyyət göstərir. Aparılan genişmiqyaslı quruculuq işləri uşaq musiqi məktəblərini də əhatə etmiş, son illərdə 20-dən çox musiqi məktəbi üçün bina inşa olunaraq və ya yenidən qurularaq istifadəyə verilmişdir. Təkcə bu ilin yanvar ayında Naxçıvan şəhərində Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin, avqust ayında isə 3 nömrəli Uşaq Musiqi Məktəbinin yeni binalarının açılışı olmuşdur.

Uşaqların istedadının üzə çıxarılmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 19 aprel tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Filarmoniyasının da mühüm rolu vardır. Filarmoniyada xalq çalğı alətləri, kamera orkestrləri, mahnı və rəqs ansamblı, xor kollektivi fəaliyyət göstərir. Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin nəzdində konservatoriyanın fəaliyyət göstərməsi isə alitəhsilli musiqiçi kadrların yetişdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamından sonra Naxçıvan Aşıqlar Birliyi yaradılmış, həmin tarixdən etibarən hər il Novruz bayramı ərəfəsində keçirilən şənliklərdə Azərbaycan xalqının tarixini özündə yaşadan xalq musiqisini, yallıları, xalq rəqslərini, toy adətləri və aşıq sənətini yaşadan musiqi kollektivlərinin çıxışları təşkil edilir.

*Milli duyğularda yoğrulan, tarixin dərinliklərindən süzülüb gələn Azərbaycan musiqisi bu gün də qorunur, yaşadılır, təbliğ edilir. Ölkəmizdə, eləcə də muxtar respublikamızda musiqinin inkişafına göstərilən qayğı isə onun daha da zənginləşməsinə öz töhfəsini verir.*

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti**

*Muxtar respublikada elm sahəsində bir sıra tədqiqat işləri aparılır. Amma nəticə baxımından səmərəli təkliflərin sayı azdır. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələri bu sahədə dönüş yaratmalı, aparılan elmi tədqiqatların səmərəliliyinə diqqəti artırmalı, elmin iqtisadiyyata tətbiqi genişləndirilməli, elmi-tədqiqat institutları ali təhsil müəssisələri ilə əlaqəni möhkəmləndirməlidirlər.*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun elm və təhsil müəssisələrində qarşıda duran vəzifələrlə əlaqədar Ali Məclisdə keçirilən müşavirədəki çıxışından**

# Elmin iqtisadiyyatda uğurlu tətbiqi hərtərəfli inkişaf deməkdir

Cəmiyyətin inkişafının hərəkətverici qüvvələrindən biri olan bazar öz əhatə dairəsinə görə, demək olar ki, insan fəaliyyətinin əksər sahələrində özünü göstərir. Bazar iqtisadiyyatındakı subyektlər mövcud mülkiyyət üzərində sahibkarlıq prinsiplərinə görə bir-birinin sifarişçisi kimi çıxış edərək cəmiyyətin rifahına yönəlmiş məhsul və xidmətlər istehsal edirlər. Bununla yanaşı, təbii, iqtisadi ehtiyatlardan və insan resurslarından rasional şəkildə istifadə edilərək arzuedilən iqtisadi artım səviyyəsinin saxlanılması üçün elm və elmə əsaslanan iqtisadi fikir və mülahizələr həmişə öz çəkisini qoruyub saxlamış, necə deyərlər, iqtisadi inkişaf elmin körükçüsü, elm də onun vacib məqamlarda xilaskarı olmuşdur.

Əvvəlcədən onu qeyd edək ki, bazar iqtisadiyyatı şəraitində elm və onun inkişaf problemləri bir çoxlarını düşündürür. Dünya ölkələrində onların inkişaf səviyyəsinə uyğun olaraq, bu məsələ öz aktuallığını həmişə qoruyur. Yəni ölkələr və onların hökumətləri öz cəmiyyətlərinin iqtisadi və mədəni inkişafından yaranan tələbatları yerinə yetirmək üçün elmdən, onun sonsuz imkanlarından bəhrələnməyə, elmdən alınan nəticələri insan fəaliyyətinin aid sahələrinə tətbiq etməyə çalışırlar. Başqa sözlə, "elm və bazar" dedikdə qətiyyən kiminsə xahiş-minnətlə bir dissertasiya yazdırıb, sonra da onun his-pasında ömrünün sonuna qədər baş girələməsi deyil, istedad və gərgin zəhmətin məhsulu olan işıqlı, əsl elmi nəticələrin iqtisadiyyatın və ictimai həyatın digər sahələrində müvəffəqiyyətli tətbiqi ilə yüksəliş və tərəqqiyə nail olunması başa düşülür. Elmi nəticə elə bir anda cəmiyyətə lazımdır ki, o, hamının tələbatını ödəyən bir beyin məhsuluna çevrilir. Belə elmi nəticə bir həkimin müalicə metodundan ayrıca bir firmanın iş texnologiyasına, aqrar təsərrüfatından turizmçiyə qədər hər yerdə hamıya faydalıdır. Tarixə baxsaq, görərik ki, hətta iqtisadçı olmayanların da bir çoxuna yaxşı tanış olan və tarixdə "Böyük depressiya" adı ilə tanınan 1929-1933-cü illər dünya iqtisadi böhranı zamanı artıq hər kəs necə yüzillik kapitalizmin sonu gəldiyini və tələb-təklif mexanizminə əsaslanan kortəbii bazar iqtisadiyyatının puç olduğunu düşünürdü. Lakin bu dövrdə özünün məşhur bir əsəri ilə bu fikirləri alt-üst edən ingilis iqtisadçısı Con Keyns sübut etdi ki, bazar iqtisadiyyatı yaşaya bilər və dövlətin mühüm tənzimləmə vasitələrinin işə salınması ilə o, tənzimlənən bazar kimi fəaliyyət göstərməlidir.

Biz də dünya elminə və mədəniyyətinə öz töhfəmizi vermiş bir xalq kimi ölkəmizdə elmə göstərilən yüksək dövlət qayğısı ilə gələcəkdə Azərbaycanın daha da zəngin və firavan bir ölkəyə çevriləcəyinə əminik. Uşaqların ağlı kəsəndən onlara yaxşı oxuyanların nümunə göstərilməsindən tutmuş təhsilin müxtəlif pillələrində bacarıqlı gənclərə edilən hamiliyə qədər hər şey daha çox elmli insanlarımızın yetişməsi üçündür.

Tarixən "elm və bazar" mövzusu necə olub, deyə bilmərəm. Ancaq fakt odur ki, bu gün bazar iqtisadiyyatı şəraitində fəaliyyətin bütün sahələri eyni dərəcədə bazar şərtlərinə uyğunlaşmaqda çətinlik çəkirlər. Xüsusən maddi istehsal sahələri ilə xidmət sferası arasında və öz növbəsində, bu sferaların hər birinin öz daxilində bazarın ritminə həmahəng olmasındakı fərqlər açıq görünür. Məsələn, tikinti sektoru ilə maşınqayırma və yaxud avtomobil sənayesi ilə turizm arasındakı mövcud bazar prinsipləri baxımından fərqlər açıq görünür. Mən hələ şou-bizneslə təhsil və səhiyyə arasındakı fərqi demirəm. Az qala yarım milyon dollarlıq avtomobilindən və yalnız toyxanalardakı şouları ilə alabəzək kostyumundan başqa, heç nə ilə tanınmayan bəzi mahnı oxuyanlarla əlləri təbaşirli bir laboratoriya müdirini necə müqayisə etmək olar? Bircə bu, bazar iqtisadiyyatının, tələb-təklifin cəmiyyətdəki mövcud münasibətlər sisteminə tam dərinliyinədək nüfuz etməməsi ilə izah oluna bilər. Digər tərəfdən, burada bazar şəraitində insanların ənənəvi meyilləri də nəzərə alınmalıdır. Misal üçün, bizim əksər insanlarımız mənalı turizm səfərlərinə və vaxtında müalicə olunmağa qırtım-qırtım pul xərclədiyi halda, toy müğənnilərinə bir neçə saatda minlərlə manat ödəməyə hazırdır. Göründüyü kimi, bir çox insanlar hələ də özünə lazım olan əsl tələbatlarla cəmiyyətin vaxtı keçmiş və yaxud tam dərk olunmayan tələbatları arasında tərəddüd etməkdədirlər. Bu da, öz növbəsində, vacib sosial-mədəni sahələr və elm arasında asimmetrik bir vəziyyət yaradır.

Bununla yanaşı, elmin bazar iqtisadiyyatındakı yeri şəksizdir. Müasir dövrdə dünyada hamının yaxşı tanıdığı innovasiyayönümlü məşhur firmaların təkcə elmi araşdırmalara ayırdığı xərcləri keçmiş Sovet hökumətinin kosmik sənayeyə ayırdığı nəhəng elm xərcləri ilə müqayisə etmək olar. Müasir elmi yeniliklərin iqtisadiyyata belə uğurlu tətbiqi həm beyin sahiblərinin, həm də istehsal və xidmət sahibkarlarının bazarda öz yerini tapmasıdır ki, bu da "elm və bazar" münasibətlərinin uğurlu həlli deməkdir. Ona görə də elmin o zaman dövlət dəstəyindən daha çox bazarda aldığı dəyərlə qiymətləndirilməsi mümkün olacaqdır ki, o, dövrün tələbinə uyğun insan həyatının bütün sahələrində özünü göstərən tələbatlara innovativ güc verə bilsin.

***Hazırda ölkəmizdə və muxtar respublikamızda dövlətin müəyyən etdiyi istiqamətlərdə elmi araşdırmalar aparılmaqdadır. Əsas məqsəd elmi nəticələr əldə etmək və tətbiq olunmaq üçün xalq təsərrüfatının müxtəlif sahələrinə təkliflər verməkdir. Ancaq keçmiş ənənələrdən fərqli olaraq, son dövrlərdə bu sahədəki problemlər özünü göstərməkdədir. Elmin iqtisadiyyata tətbiqi baxımından praktik olaraq çox az nəticələr əldə edilməsi, yeni texnologiya və innovativ yeniliklərin xaricdən idxal edilməsi və müasir texnologiyadan baş çıxaran kadr çatışmazlığı çox sahədə özünü göstərməkdədir. Ona görə də dövlətin elmə və təhsilə verdiyi bu qədər qayğı və diqqətin, xalqımızın elmə və maarifə tarixi bağlılıq ənənələrinin artıq hamımıza lazım olan gözəl bəhrələr verməsi üçün elm-təhsil-iqtisadiyyat münasibətləri zəncirində kök salmış zəif bəndlərin tezliklə aradan qaldırılaraq yerinə, sadəcə, düşünən və çalışqanların gətirilməsi cəmiyyətimizin vaxtı çatmış sosial sifarişidir.***

**Əli CABBAROV**

Naxçıvan Muxtar Respublikasında əlverişli sahibkarlıq və biznes mühitinin formalaşması xarici iş adamlarının da Naxçıvana investisiya yatırmaqla yeni istehsal sahələri yaratmasına səbəb olmuşdur. Belə müəssisələrdən biri də Naxçıvan şəhərindəki Şəhriyar 1 ünvanında fəaliyyətə başlayan “Nuhçıxan” Məhdud Məsuliyyətli Cəmiyyətidir.

# “Nuhçıxan”ın məhsullarına tələbat artır

“Nuhçıxan” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Uğur Qaraxan söhbətində qeyd etdi ki, əvvəllər Naxçıvana, sadəcə, turist kimi səfərlər edərdik. Bu bölgədə özəl bölməyə, sahibkarlıq fəaliyyətinə yaradılan şəraiti görüb, biz də investisiya qoymaqla yeni bir istehsal sahəsi yaratmaq qərarına gəldik. 2012-ci ilin may ayında müəssisə üçün ayrılmış binada əsaslı təmir və yenidənqurma işlərinə başlanıldı. Təqribən bir il müddətində inşaat işləri başa çatdırıldı. Layihəyə uyğun yenidən qurulan üçmərtəbəli binada istehsal sahələri, xammal və hazır məhsulların saxlanılması üçün anbar, laboratoriya, yeməkxana, inzibati və digər yardımçı otaqlar istifadəyə verilmişdir. Ümumilikdə, müəssisə üçün ayrılmış binanın yenidən qurulmasına və müasir texnoloji avadanlıqların alınmasına 2 milyon manat vəsait sərf olunmuşdur.

Müəssisədə tibbi vasitələrin, yuyucu, təmizləyici maddələr və plastmas taraların istehsalı sahəsi fəaliyyət göstərir. Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılmış müəssisədə istehsal prosesi avtomatlaşdırılmışdır. Türkiyə, Fransa, Almaniya, İsveçrə və Rusiya Federasiyasından idxal olunan xammal reseptə uyğun olaraq, ayrı-ayrı çənlərdə qarışdırılıb hazırlanır və istehsal xəttinə buraxılır. Kompüterlə idarəetmə mərkəzi ilə təmin olunmuş avadanlıqlarda sifarişə uyğun hazırlanan məhsul 500, 750 qramlıq və 1 litrlik, digər istehsal xəttində isə 5 litrlik taralarda qablaşdırılır.

Texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunan müəssisədə tibb sahəsi üçün aldehidli alətdezinfeksiyaedici, etil spirti, ultrasəslə müayinə üçün jele, təmizləyici və alətdezinfeksiyaedici məhlul və digər tibbi vasitələr istehsal olunur. Yuyucu və təmizləyici maddələr istehsalı sahəsində isə “İnci” adlı saç şampunları və kremi, “Cavahir” adlı qab şampunları, kafel, metlax və taxta döşəmələr üçün səth təmizləyiciləri, “Ulduz” adlı şüşətəmizləyici, “Təravət” adlı hava təravətləndirici, “Sədəf” maye sabun və sair – ümumilikdə, 3 növdə 25 çeşiddə məhsul istehsal olunur. İstehsal gücü saatda 1600 ədəd 500, 750 qramlıq və 1 litrlik, 400 ədəd 5 litrlik taralar olan yuyucu və təmizləyici maddələr istehsalı sahəsində və saatda 250 ədəd plastmas taralar istehsalı sahəsində tələbata uyğun olaraq məhsul istehsal edilir. İstehsal olunan məhsul Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyata alınmış “Nuhçıxan” əmtəə nişanı ilə satışa çıxarılır.

Burada müasir avadanlıqlarla təchiz olunmuş laboratoriya da fəaliyyət göstərir. Müəssisəyə daxil olan xammal və hazır məhsul həmin laboratoriyada analizdən keçirildikdən sonra satışa çıxarılır. İstehsal olunan məhsulun vaxtında və keyfiyyətlə ticarət obyektlərinə çatdırılması üçün müəssisəyə 2 ədəd avtomaşın alınmışdır.

Sanitar-gigiyenik qaydalara ciddi əməl olunması da mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılır, məhsulun çeşidi dəyişdirilərkən çənlər və avadanlıqlar xüsusi maddə ilə yuyulub təmizlənir, işçilər mütəmadi olaraq tibbi müayinədən keçirilirlər.

✍ Kərəm HƏSƏNOV



# Naxçıvan – sağlam həyatın təbii coğrafiyası

***Tarix boyu insanlar uzunömürlülüyün sirrini axtarıb, çox yaşamağın yollarını arayıblar. Ancaq bütün hallarda gəlinən nəticənin əsasını sağlam həyat tərzi təşkil edib. Gündən-günə qloballaşan dünyanın verdiyi “yeniliklər” bizi bu həyat tərzindən uzaqlaşdırmağa çalışsa da, fakt faktlığında qalmaqdadır: yalnız sağlam həyat tərzi keçirən, qidalanma prinsiplərinə düzgün əməl edən insanlar uzun və sağlam ömür sürə bilərlər.***

***Alimlərin apardığı araşdırmalara görə, insanların müxtəlif xəstəliklər səbəbindən həyatdan köçməsi ildən-ilə getdikcə daha geniş yayılmaqdadır. Son 20-30 ildə xərçəng, şəkər kimi çətin müalicə olunan xəstəliklərin artmasının əsas səbəbi də insanların sağlam həyat tərzindən aralı düşməsi, düzgün və təbii qidalarla qidalanmamasıdır. Bəs sağlam həyat tərzi nədir?***





Ulu Tanrı insanların sağlam yaşamaları üçün hər şeyi ana təbiətə bəxş edib. Ancaq maraqlı burasıdır ki, indiyədək heç kim sağlam təbii qidalanmanı özünə həyat tərzi kimi seçməyib. Hətta dünyanın tanınmış naturopat alimləri belə, yalnız həyatda qarşılaşdıqları ağır xəstəliklərdən sonra, əllərini hər şeydən üzdükləri bir zamanda bu həyat tərzini seçib, güclü xəstəlikləri dəf edərək yaşadıqlarını qələmə alıblar. Sağlam həyatın konturlarını özündə əks etdirən bu əsərlərə məşhur alim Pol Breqin, Katsudzo Nişinin, Herbert Şeltonun, Norman Uokerin və digərlərinin yaradıcılığında rast gəlmək olar. Sevindirici haldır ki, bu həyat tərzini təbliğ edən insanlardan biri də tez-tez muxtar respublikamızda qonaq olan yazıçı-jurnalist Ərşad Əzimzadədir. Ərşad Əzimzadə Naxçıvana hər səfərində buranın təbii gözəlliklərindən söhbət açır, qədim torpağın əsl uzunömürlülər diyarı olduğunu bildirir. Bir zamanlar bir neçə ağır xəstəlikdən əziyyət çəkən, müasir tibbin müalicəsində çarəsiz qaldığı dərdlərdən yaxa qurtarmaq üçün ana təbiətə pənah gətirən bu insanın doğma yurdumuzun təbii gözəllikləri haqqında dediyi fikirlər istər-istəməz Naxçıvan təbiətinə bir daha nəzər salmaq zərurəti qoyur qarşımızda. Yaşadığımız diyarın – muxtar respublikamızın təbii zənginliklərinin bəzən o qədər də fərqinə varmadığımız bu özəlliklərini hörmətli oxucularımızla bölüşmək istəyi, əslində, çoxdan baş qaldırmışdı ürəyimdə...

Əvvəlcə onu qeyd etmək istərdim ki, insan sağlamlığı üçün ekoloji təmizlik əsas, hətta ən birinci şərtlərdəndir. Muxtar respublikamızın kəskin kontinental iqlimi ölkəmizin digər regionları ilə müqayisədə burada yaşıllıqların salınmasında xeyli çətinliklər törədir. Mütəxəssislərin dili ilə desək, ölkəmizin digər rayonlarında əkilən 10 tingdən 8-nin inkişaf edib böyüməsi realdırsa, burada həmin saydan yalnız ikisi özünü doğruldur. Ötən əsrin 90-cı illərində sərt qışı keçirmək üçün çox da geniş əraziləri əhatə etməyən meşə massivlərinin əksəriyyəti, hətta dağlıq ərazilərdə belə, müxtəlif kol-ağaclar məhv edildi. Elektrik enerjisinin, təbii qazın olmadığı bir məmləkətdə insanlar blokadanın çətinlikləri ilə bərabər, həm də ekoloji çətinliklərlə üz-üzə qalmışdılar. Təsəvvür edin ki, yaşıllıqlar muxtar respublika ərazisinin 1 faizdən də aşağı – 0,6 faizini əhatə edirdi. Ancaq şükürlər olsun ki, Naxçıvan düşmənə sinə gərməklə bərabər, öz varlığını qoruyub saxlamağı da bacardı. İllər bir-birini əvəz etdikcə Naxçıvan da inkişaf etməyə, dirçəlməyə başladı. Belə bir zamanda regionda sonralar əsl intibahın tərkib hissəsinə çevriləcək kütləvi iməciliklərə start verildi. Muxtar respublika rəhbərinin də bu günədək iştirak etdiyi bu iməciliklərdə saysız-hesabsız yaşıllıq zolaqları yaradıldı, ağaclar əkildi. İşin digər tərəfi bundan ibarət idi ki, iməciliklər mövsümi xarakter daşımırdı və kütləvi yaşıllaşmaya sənətindən və peşəsindən asılı olmayaraq, kütləvi yanaşma tətbiq olunmuşdu. Su tutmayan ərazilərdə, heç zaman yaşıllıq üzü görməyən təpə-yamaclarda belə, ağacların, gül-çiçəklərin əkilməsinə qərar verilmişdi. İndiyədək yalnız bəzi ölkələrdə tətbiq edilən damcı üsulunun suvarmada yeni metod kimi tətbiq olunması sonralar “Naxçıvan gündən-günə çiçəklənir” ifadəsinin həm də məcazi formada deyilməməsinə şərait yaradacaqdı. Bəli, görülən işlərin nəticəsidir ki, bir zamanlar yaşıllıq örtüyü 0,6 faiz təşkil edən bir region bu rəqəmi 10 faizə qədər yüksəldə bilmişdi və əlbəttə ki, bu, son hədd deyil.

Görülən işlər həm də iqtisadi mənafeni təmin etməli idi. Meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdirilməsi ilə bağlı muxtar respublika rəhbərinin atdığı növbəti addım dadı və tamı ilə seçilən Naxçıvan meyvələrinin yetişdirilməsinə geniş imkanlar yaradırdı. Bunun nəticəsidir ki, 1 yanvar 2013-cü il tarixə olan məlumata görə, muxtar respublikada meyvə ağaclarını əhatə edən sahələr 4235 hektara çatdırılıb ki, bunun da 3143,4 hektarı barverən ağaclardır. Təbii ki, bu da son hədd deyil. Digər meyvə ağacları ilə bərabər, bu ildən tut-bağçılıq təsərrüfatının da inkişaf etdirilməsi əsas məqsəd olub. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsərrüfat sahələrində 1,5 hektar sahədə tut tinglərinin yetişdirilməsi üçün əkin işləri aparılıb.

İstehsal edilən təbii məhsulların – yerli meyvə-tərəvəzin rahat satışı üçün, təbii ki, kəndlinin özünün öz məhsulunu istehlakçıya çatdırmaq məsələsi həll olunmalı idi. Artıq neçə illərdir ki, paytaxt Naxçıvan şəhəri daxil olmaqla, digər rayon mərkəzlərində də keçirilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkaları bu məsələnin həll edilməsinə şərait yaradır.

Ancaq görülən işlər bununla bitmir. Əhalinin daimi olaraq kənd təsərrüfatı məhsulları ilə təmin edilməsində növbəti addımlar atılır. Paytaxt Naxçıvan şəhəri də daxil olmaqla bir çox rayon mərkəzlərində meyvə-tərəvəzlərin saxlanması üçün soyuducu anbarların tikilib istifadəyə verilməsi əldə edilən məhsulların xarab olmamasına, uzun müddətə saxlanılmasına və beləliklə, il boyu bu yerli məhsulların bazardan əldə edilməsinə şərait yaradır.

Naxçıvan Muxtar Respublikasının təbii özəllikləri sırasında buradakı tarixi kəhrizləri, çeşmələri qeyd etməmək mümkün deyil. Son dövrlərdə xeyli sayda bu cür kəhriz və çeşmələrdə təmir-bərpa işləri aparılaraq əhalinin istifadəsinə verilib. Və yaxud götürək Naxçıvan dağlarını. Kiçik Qafqaz dağ silsiləsini təşkil edən bu dağlarda nə qədər dərman bitkiləri var. Elə bu flora zənginliyindəndir ki, son dövrlər nadir heyvanların sayı da artmaqdadır. Əslində, bunlar bir-biri ilə əlaqəlidir. Əgər bitki örtüyü yaxşı qorunursa, həmin ərazinin heyvanat aləmi də inkişaf edər. Qanunsuz ovçuluqla bağlı həyata keçirilən tədbirlər, nadir heyvan növlərinin çoxaldılmasına nəzarət bu zənginliyi ildən-ilə artırmaqdadır.

Qloballaşmanın müasir yaşayış yerlərinə verdiyi “yenilik”lərdən biri də tıxaclı avtomobil yolları, natəmizlik, səsli-küylü şəhər həyatıdır. Əhalisi 80-100 minə çatan şəhərlər arasında, bəlkə də, Naxçıvan yeganə şəhərlərdəndir ki, sadaladığımız problemlər burada sıfır səviyyəsindədir. Nəqliyyatda hökm sürən nizam-intizam, avtomobil və piyada yollarının daim təmiz saxlanması, şəhər həyatı üçün xarakterik olan oğurluq və müxtəlif cinayət hadisələrinin olmaması, ümumi sakitlik, ekoloji tarazlığın normada olması bu şəhərin sağlam həyat tərzi keçirənlər üçün təbiiliyini daha da artırır.

Muxtar respublikada insanların sağlamlığının qorunmasına böyük qayğının nəticəsidir ki, son 18 ildə 200-ə yaxın müxtəliftəyinatlı səhiyyə müəssisəsi tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Ən ucqar dağ kəndlərində belə, kompleks şəkildə aparılan tikinti-quruculuq işlərinin tərkibində yeni yaradılmış səhiyyə ocaqlarının öz yeri var.

Sağlam həyat tərzində fiziki tərbiyənin rolunu yazının əvvəlində qeyd etmişdik. Muxtar respublikada müxtəlif idman müəssisələrinin yaradılması, idmanın kütləviliyinə nail olunması istiqamətində həyata keçirilən tədbirlərə dövlət səviyyəsində nəzərətin təmin edilməsi sağlam gələcəyə hesablanmış strateji xətt kimi dəyərləndirilməlidir.

**Bəli, bütün bu qeyd etdiklərimiz muxtar respublikamızı sağlam həyat tərzi keçirmək istəyən insanlar üçün ideal bir məkana çevirir. Naxçıvanın təmiz havası, bol Günəş işığı, saf suları, təbii məhsulları və sakit təbiəti istənilən insanın sağlam həyat sürməsini təmin edəcək əsas amillərdir. Naxçıvanın təbii özəlliklərinin üzərinə dövlətin qurub-yaratdığı gözəllikləri də əlavə etsək, bu unikal məkanın təqdim etdiyi imkanları dəyərləndirməmək mümkün deyil. Naxçıvan sağlam həyatın təbii coğrafiyasıdır. Yaradılanlar isə bu coğrafiyanı daha da genişləndirir. Ancaq məni düşündürən budur ki, görəsən, muxtar respublika rəhbərinin sağlam həyat tərzinin təbliğ edilməsi yönündə həyata keçirdiyi tədbirləri bu yurdun sakinləri olaraq öz həyatımızda tətbiq edə bilirikmi? Düşünməyə dəyər.**

✍ Səbuhi HƏSƏNOV

# Sığorta hadisəsi nəticəsində dəymiş zərərin məbləği ödənilib

2013-cü il fevral ayının 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “2012-ci ilin yekunları və qarşıda duran vəzifələr” mövzusunda keçirilən müşavirədə bir sıra nazirlik, komitə və agentliklərlə yanaşı, Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin qarşısında da mühüm vəzifələr qoyulub. Həmin müşavirədə Dövlət Baş Sığorta Agentliyinə sığortanın, xüsusilə könüllü sığortanın müxtəlif növlərinin mahiyyəti və təbliği ilə bağlı hüquqi və fiziki şəxslər arasında izahat xarakterli tədbirlərin keçirilməsi, əhali arasında sığortaya olan etibarlılığın artırılması üçün müvafiq işlərin görülməsi, yol verilmiş nöqsanların aradan qaldırılması tapşırılıb. Ötən müddət ərzində həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikamızda daşınmaz əmlakın sığorta edilməsində vətəndaşların fəallığı xeyli yüksəlib. Çünki qəfildən baş verən yanğınlar, təbii fəlakətlər, elektrik və yaxud qazdan əmələ gələn təhlükələr və digər hadisələrin maddi nəticələrinin aradan qaldırılmasının yeganə yolu əmlakı sığorta etdirməkdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyindən aldığımız məlumata görə, bu günlərdə Babək rayonunun Qahab kənd sakini Sərfinaz Məmmədovanın yaşayış evinin mətbəxində baş vermiş yanğına görə ona daşınmaz əmlakın icbari sığortası üzrə 1274 manat, ev əmlakının sığortası üzrə 604 manat, ümumilikdə, 1878 manat sığorta məbləği ödənilib. “Gəmiqaya” Məhdud Məsuliyyətli Cəmiyyətində fəhlə işləyən İlkin Əhmədovun istehsalat qəzası nəticəsində ölümü ilə əlaqədar istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirməsi hallarından icbari sığorta üzrə ailəsinə 4767 manat sığorta ödənişi verilib.

Xəbərlər şöbəsi

# Ali məktəblər Bilik Gününü qeyd ediblər

Naxçıvan Dövlət Universitetində 15 sentyabr – Bilik Günü münasibətilə yığıncaq keçirilmişdir. Tədbirdə universitetin yaranma tarixini və inkişaf yolunu əks etdirən film nümayiş etdirilmişdir. Bu il ali məktəbə yeni qədəm qoyan I kurs tələbələrinin iştirak etdiyi tədbirdə rektor, biologiya elmləri doktoru, professor Saleh Məhərrəmov çıxış edərək bildirmişdir ki, universitetin 108 hektarlıq ərazisində tikilən, əsaslı təmir olunaraq istifadəyə verilən tədris korpusları, Tələbə Sosial Xidmət Mərkəzi, Tələbə evi, idman meydançaları ölkədə və Naxçıvan Muxtar Respublikasında təhsilə, savadlı kadrların yetişməsinə göstərilən yüksək qayğının təzahürüdür. Rektor 2013-2014-cü tədris ilində universitetə qəbul olunmuş tələbələri təbrik etmiş, onlara yeni dərs ilində uğurlar arzulamışdır.

Sonra hüquqşünaslıq ixtisası üzrə 690 balla tələbə adını qazanmış Surə Qurbanova, müalicə işi ixtisasına qəbul olunmuş Tamam Seyidli, beynəlxalq münasibətlər ixtisasının I kurs tələbələri Rəhim Nəcəfov və İnci Rzayeva çıxışlarında inkişaf dinamikasına görə dünyanın nüfuzlu ali məktəbləri ilə rəqabətə girə biləcək bir təhsil ocağı olan Naxçıvan Dövlət Universitetinin tələbəsi adını qazandıqları üçün qürur duyduqlarını və burada tələbələrə yaradılan şəraitdən layiqincə istifadə edəcəklərini bildirmişlər.

Sonda universitetə yeni qəbul olunmuş bir qrup tələbəyə tələbə biletləri təqdim olunmuşdur.

*Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Bilik Günü münasibətilə Naxçıvan Özəl Universitetinin birinci kurs tələbələri ilə görüş keçirilmişdir.*

Tədbirdə çıxış edən universitetin rektoru, professor İsmayıl Əliyev yeni dərs ilinin başlanması münasibətilə tələbələri təbrik etmiş, gələcəyimiz olan gənclərin mükəmməl təhsil almaları üçün muxtar respublikamızda yaradılan şəraitdən danışmışdır. Qeyd edilmişdir ki, universitet fəaliyyət göstərdiyi 19 ildə daim dövlət qayğısı ilə əhatə olunmuşdur. Göstərilən qayğının nəticəsidir ki, artıq bu ildən universitetin maddi-texniki bazasını gücləndirmək məqsədilə bir neçə tədris korpusu, inzibati binalar tikilir.

Ali təhsil ocağı respublikamızın bir çox ali məktəbləri ilə yanaşı, çoxsaylı xarici universitetlər və beynəlxalq qurumlarla da əməkdaşlıq edir. Bu əməkdaşlıq sayəsində ortaq elmi proqramlar və konfranslar təşkil edilir, tələbə mobilliyinin artırılması, müəllim, tələbə mübadilələrinin həyata keçirilməsi məqsədilə müxtəlif tədbirlər reallaşdırılır.

Rektor çıxışında onu da diqqətə çatdırmışdır ki, 2 fakültənin, 6 kafedranın, 5 şöbənin və 4 mərkəzin fəaliyyət göstərdiyi universitetə bu il 272 nəfər tələbə qəbul olunmuşdur. Bu ildən etibarən ali təhsil ocağında iki yeni ixtisas – informatika mühəndisliyi və biznesin təşkili və idarə edilməsi ixtisasları açılmışdır ki, həmin ixtisaslara, ümumilikdə, 44 nəfər tələbə qəbul olunmuşdur.

Ali təhsil ocağının tədris və elmi işlər üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent İbrahim Kazımbəyli, tərbiyə işləri üzrə prorektoru Əli Yusifov və başqaları çıxış edərək tələbə adını qazanmış gəncləri təbrik etmişlər.

Valideynlər çıxış edərək respublikamızda təhsilə göstərilən qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

Sonda yüksək bal toplamış tələbələrə tələbə biletləri təqdim olunmuş, "Dəniz" vokal ansamblının ifasında musiqi nömrələri səsləndirilmişdir.

**Xəbərlər şöbəsi**

# "Araz-Naxçıvan" çempionata 3 xalla başladı

***Azərbaycan birinci divizionunda yeni – 2013-2014-cü il mövsümünə start verildi. Cari ilin bizim üçün bu qədər maraq kəsb etməyinin əsas səbəbi isə Naxçıvanın "Araz" futbol klubunun çempionatda çıxış etməsidir.***

### "Turan-T" ilə yarımçıq qalmış hesab

"Araz-Naxçıvan"ın birinci divizionun startında belə çətin rəqiblə qarşılaşmağı bir qədər arzuolunmaz idi. Çünki premyer-liqanın bütün mövsümlərinin iştirakçısı olmuş "Turan"a qarşı səfərdə oynamaq heç də asan deyildi. Bir vaxtlar Tovuz klubunun "sükanı arxasında əyləşmiş" Əsgər Abdullayev bu dəfə keçmiş komandasına qarşı idi. Sonuncu dəfə "Araz" güclülər dəstəsində 2000-2001 və 2001-2002-ci illər mövsümündə çıxış edib.

İlk mövsümdə komandamız məhz bu stadionda tovuzlulara məğlub olmuşdu. Naxçıvanda keçirilən görüşdə meydanı "sülh"lə (1:1) tərk edən qırmızı-ağlar səfərdə 2:7 hesablı ağır məğlubiyyətə düçar olmuşdu. 12 klubun dairəvi sistemlə mübarizə apardığı 2000-2001-ci il mövsümündə "Araz" da yarışa qatılmışdı. Reqlamentə əsasən, həmin çempionatda 2 komanda aşağı dəstəyə yuvarlanmalı idi. Keçirdiyi 20 oyundan 4-nü qələbə, 2-ni isə heç-heçə ilə başa vuran Naxçıvan təmsilçisi 14 xalla mövsümü 9-cu pillədə başa vurmaqla yeni mövsümdə güclülər dəstəsində qalmağa müvəffəq olmuşdu.

Növbəti – 2001-2002-ci il mövsümündə komandamız daha uğurlu təsir bağışladı. 12 komandanın iştirak etdiyi çempionatda "Araz" 22 matçda 6 qələbə və 6 heç-heçə əldə etdi. Beləliklə, 24 xal toplayan muxtar respublika klubu turnir cədvəlinin birinci mərhələsini 8-ci pillədə tamamladı. İkinci mərhələdə isə komandamız müəyyən səbəblərə görə çempionatda çıxış etmədi (həmçinin Azərbaycan çempionatı yarımçıq dayandırıldı). Qeyd edilən mövsümdə də komandamız ilk mərhələdə "Turan"la iki görüş keçirdi. Tovuzda komandamızı məğlub edən (0:2) "Turan" Naxçıvanda yenə heç-heçə ilə barışmalı oldu – 2:2.

### Ə.Abdullayevin taktikası və gənclərin inamlı çıxışı

Təbii ki, həmin dövrdə komandamız hazırkı şəraitlə təmin olunmamışdı. Futbola göstərilən qayğı nəticəsində "Araz-Naxçıvan" yenidən formalaşdı və birinci divizionda mübarizəyə qoşularaq azarkeşləri stadiona toplamağı bacardı. İlk turun səfərdə keçirilməsi qırmızı-ağlar üçün çətin oldu. Çünki baş məşqçi Əsgər Abdullayev yeni yaradılan komandada yeni, gənc futbolçuları meydana buraxmışdı. Hələ ki rəsmi görüşə çıxmayan bir komanda üçün bu, vacib amildir. Hər hansı uğursuzluqda Ə.Abdullayevin özü də futbolçuları təqsirli hesab edə bilməzdi: komanda yeni yaranıb, futbolçuların çoxu bir yerdə oynamayıb, onlar meydanda bir-birlərini tam olaraq başa düşməyə bilərlər və sair. Bu kimi halları nəzərə alan baş məşqçi sanki Tovuza hazır vəziyyətdə yollanmışdı. Bir müddət əvvəl Tovuzda yerli komandanın məşqçisi kimi meydana çıxan Əsgər Abdullayev bu dəfə rəqib kimi "Turan-T" azarkeşi qarşısında nəyə qadir olduğunu göstərdi.



Oyuna gəlincə, Əsgər Abdullayev ənənəsinə sadiq qalaraq yenə rəqib qarşısında 4-5-1 taktikası ilə oynamağa üstünlük verdi. Qapını təcrübəli Hüseyn Məhəmmədov qoruyurdu. Baş məşqçi hücum xəttində Bəxtiyar Soltanova güvənmişdi. Təbii ki, cinahlardan Emin İmaməliyev və Elgün Abbaslı hücumun sivri ucunda olan B.Soltanova daim dəstək olurdular. Oyuna sürətli başlayan "Araz-Naxçıvan" elə ilk dəqiqələrdən hesabı açmağa can atan tərəf oldu. 10-cu dəqiqədə komandamız tablodakı sıfırları dəyişdi. Belə ki, E.İmaməliyevin künc zərbəsindən yerlə ötürməsini iki futbolçu aldadıcı fəndlə buraxdı. Akif Tağıyev isə gələn ötürməni zərbə ilə qapıya endirdi. 20 yaşlı futbolçumuzun bu qolundan sonra komandamız daha inamla irəli atılmağa başladı. Bu anda müdafiədə boşluqdan istifadə edən meydan sahibləri "status-kvo"nu bərpa etməyə müvəffəq oldular. 27-ci dəqiqədə əks-hücum zamanı Kamil Xanıyev yerli fanatları coşdurdu. Qol sanki qırmızı-ağları yuxudan oyatdı. Ardıcıl hücumlar təşkil edən Əsgər Abdullayevin "drujinası" ilk hissədə hesabı dəyişə bilərdi. İlk olaraq, Mikayıl Rəhimovun başla zərbəsi qapıdan bir qədər aralı keçdi. Daha sonra Emin İmaməliyevin qüvvətli zərbəsini qapıçı geri qaytarsa da, növbəti zərbədə Bəxtiyar Soltanovda dəqiqlik çatmadı.

İlk hissəyə nisbətən ikinci hissədə qələbəni daha çox qazanmaq istəyən tərəf kimi "Araz-Naxçıvan" görünürdü. Ə.Abdullayev ikinci yarıya başlamamışdan öncə meydana yeni ruh, qüvvə atmaq fikrində idi. Onun daha çox sürətli və gənc futbolçulara inamı 52-ci dəqiqədə öz bəhrəsini verdi. Eşqin Quliyevin ötürməsindən sonra Emin İmaməliyev qapıçı ilə üzbəüz qaldı. Fürsətdən istifadə edən Emin İmaməliyev komandasını yenidən hesabda önə keçirdi. Emin İmaməliyev bundan sonra sanki rəqibin zəif tərəflərini müəyyənləşdirdi. Onun ardıcıl uzaqdan zərbələrinin bir qismi qapıdan aralı keçsə də, bir qismini qapıçı çətinliklə dəf etdi. Artıq əsasən hesabı qoruyub saxlamağa çalışan "Araz-Naxçıvan" həmçinin rəqib qapısını da narahat edirdi. Belə epizodların birində Elgün Abbaslının zərbəsi dirəyə tuş gəldi. Son dəqiqələrə kimi inamlı təsir bağışlayan və rəqibin bütün hücumlarını dəf edən qırmızı-ağlar 10 mövsümlük fasilədən sonra səfərdə qələbəni təmin etməyə müvəffəq oldu.

Sonuncu dəfə 2001-2002-ci il mövsümündə səfərdə "Dinamo-Bakılı"nı məğlub edən (2:4) "Araz-Naxçıvan" o gündən bəri qonaq sindromunu sındıra bilmirdi. 12 ildən sonra səfərdə qələbəni bayram edən muxtar respublika klubu səfər qələbəsi həsrətinə son qoymuş oldu.

Qeyd edək ki, "Araz-Naxçıvan" birinci divizionda növbəti görüşünü Şəmkirin eyniadlı komandasına qarşı keçirəcək. II tur çərçivəsində keçirilən matç sentyabrın 22-si Naxçıvan Muxtar Respublika Stadionunda oynanılacaq. Oyunun başlama vaxtı isə $18^{00}$-dir.

**Ceyhun MƏMMƏDOV**

# Xalq teatrının yeni tamaşası

***Şahbuz Rayon Xalq Teatrı yarandığı gündən musiqili komediyaların səhnələşdirilməsinə daha çox meyil edir. Tamaşalarda ifa olunan canlı musiqi səhnəyə qoyulan əsərlərin daha təbii təqdimində xüsusi rol oynayır.***

Ötən həftə Şahbuz Rayon Mədəniyyət Evində Zülfüqar Hacıbəyovun "Evliykən subay" pyesi əsasında hazırlanmış üçpərdəli səhnə əsərinin ilk tamaşası olmuşdur.



Tamaşada ötən əsrin əvvəllərində ailə-məişət münasibətlərində mövcud ziddiyyətlər gülüş hədəfinə çevrilmişdir. Əsərin əsas konflikti Kəlbə Hacı və onun arvadları Pərzadla Hürzad üzərində qurulmuşdur. Komediyanın əsas gülüş və tənqid hədəfi Kəlbə Hacıdır. İki arvad arasında qalan, tamaşanın finalına qədər gülüş doğuran bu obrazı Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi Çingiz Haqverdiyev tamaşaçıya uğurla təqdim edə bilmişdir.

Tamaşada Pərzad (İlahə Şəfiyeva) və Hürzad (Azadə Əsgərova) Kəlbə Hacı obrazının eybəcərliklərini ifşa edirlər. Bu, tamaşada gülüş yaradan əsas məqamlardır. Öz vadar edildikləri taleləri ilə barışmayan bu qadınlar ikinci pərdədə Kəlbə Hacını evdən çıxarırlar. Ortalıqda qalan Kəlbə Hacı Ü.Hacıbəyovun Məşədi İbad obrazını xatırladır. Kəlbə Hacının küçədə üz tutduğu tiplər də gülüş doğurur. Qospodin (Çingiz Kəlbiyev), Molla (İsa Qələndərov), Əmioğlu (Aslan Məmmədov), Xosrov bəy (Tahir Əsgərov), Rüstəm (Ehtiram Qurbanov) Köhnə paltarsatan kimi tiplər dövrün koloritini ifadə etmək baxımından canlı və yaddaqalandır.

Tamaşanın rejissoru Ramiz Cəlilov, rəssamı Səxavət Paşayev, musiqi tərtibatçıları isə Murad Nəcəfov və Emin Hüseynovdur. Tamaşadakı musiqi nömrələrinin canlı ifası pyesin təsirli təqdimini səciyyələndirən amillərdəndir.

Sonda Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev və Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov çıxış edərək uğurlu tamaşaya görə yaradıcı kollektivi təbrik etmişlər.

**Əli RZAYEV**

### *İtmişdir*

Naxçıvan şəhəri, "20-ci" məhəllə, ev 135-də yaşayan Abbasov Vüqar Zakir oğlunun adına olan 10204 inventar nömrəli texniki pasport və 02.05.2013-cü il tarixdə verilmiş 0030515 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "20-ci" məhəllə, ev 138-də yaşayan Abbasov Vüqar Zakir oğlunun adına olan 10205 inventar nömrəli texniki pasport və 02.05.2013-cü il tarixdə verilmiş 0030514 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Məmmədov Emin Əlövsət oğlunun adına verilmiş hərbi bilet itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, İ.Ələkbərov küçəsi, ev 22-də yaşayan Əhmədov Əhməd Şahbaz oğlunun adına olan evin 3730 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

### *Allah rəhmət eləsin*

AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Bioresurslar İnstitutunun elmi işçisi Seyfəli Qəhrəmanova, əzizi **SEVDA XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin kollektivi Sədərək Rayon Rabitə İdarəsinin rəisi Səməd Qədimova, əzizi **TELMAN EDYAROVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru Tariyel Talıbov və institutun kollektivi iş yoldaşları Seyfəli Qəhrəmanova, əzizi **SEVDA XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının baş həkimi Əli Ələsgərov və həkimlərdən Məhərrəm Tarverdiyev, Adil Məmmədov, Ramazan Abbasov və Yaşar Rzayev iş yoldaşları Bəxtiyar və Gözəl Hüseynovlara, əzizləri **MÜZƏFFƏRİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları Günay Qəhrəmanovaya, anası **SEVDA XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkimlərindən Azər Məmmədov, Hüseyn Abdullayev, Elsevər Ağayev, Kəmalə Qəmbərova və Sabirə Kərimova iş yoldaşları Bəxtiyar və Gözəl Hüseynovlara, əzizləri **MÜZƏFFƏRİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 3940. Sifariş № 843